hundan, atasının igidliyindən, anasının cəfakeşliyi və səbrindən keçib gələn həmin qırılmaz izin övladıdır; bu izi şeiri və nəsri ilə gələcəyimizə yönəltməyi bacarmışdır.

Əsrik çayının çağlayan səsi, dağların kəndi qucaqlayan qaya qolları, yazqabağı corab ipləri kimi yamaclardan süzülən sular, gecələr dərəni dolduran Ay işığı, qar işığı, dağların üstünə enmiş ulduz salxımları və s. romanda əllə toxunula biləcək bir canlılıqla verilmişdir.

"Dumanlı-günlü havada kənd daxmalarından üzü qəbiristanlığa doğru dərd, fəryad qanadlanır. Bilmək olmur, ağlaşma səsi hayandan gəlir, qar içində toyuq cşənəyi kimi qaralan yastı- yapalaq kənd evlərindən, yoxsa boz ayın boz-bulanıq qış havasından. Səs hərdən cənazənin arxasınca yetişir, hərdən də bulud arxasına gizlənən günəş şəfəqləri kimi əriyib yox olur. Laydır-cənazənin qəmin altında belləri bükülən üç gəlin bu səsi tutub xısın-xısın edələşir: ilk dəfədir ki, bir ölü kənd qəbiristanına qadınların çiynində gedir".

Faciəli mənzərənin son dərəcə təsirli , unudulmaz və orijinal təsviridir bu və romanın təhkiyə tərzini dəyərləndirmək baxımından da maraqlıdır.

Bir sözlə, "İz" romanı mövzuya yanaşma tərzi, zəngin dili, obrazları təqdim etmə üsuluna görə seçilən bir əsərdir və ədəbi tənqidimizin diqqətindən kənarda qalmamalıdır.

Atasını müharibəyə anasının qucağında yola salan Məmməd İsmayıl ana qucağını dünya boyda genişləndirdi. Əsrikdən başlanan iz "iz azdırmaq" üçün bir evin, bir rayonun başına dolanıb qalmadı, eldən-elə, ölkədən-ölkəyə uzandı və o kəndin sazının-sözünün, Əsrik çayının, boş qalmış evinin qapısını döyən ağacdələnin, o kəndin başında çaxan ildırımların, o dağların günlərlə ara verməyən payız yağışlarının, anaların-ataların didərgin ruhlarının səsini öz parlaq şeirləri ilə dünyaya yaydı; həm də böyüdüb Azərbaycanın poetik səsi kimi yaydı. Məmməd bəy komitə sədri, mən nazir olanda, kirayədə qaldığımız və bəzən cibimizdə pulumuzun, mənzilimizdə çörəyimizin tükəndiyi günləri yada salırdıq. Heç yüksək vəzifələrdə olanda da başdan aşan firavanlıq içində yaşamadıq; ocağımızdan aldığımız əxlaq dərsinə, halallıq dərsinə xəyanət etsək, bizi sədaqətlə irəli aparan izlər qırılardı; yada salırdıq ki, şükür zəhmətimiz batmadı və indi xalqımıza müəyyən xidmət göstərmək imkanı da qazanmışıq.

Sonra şərait onu Türkiyəyə köçməyə məcbur etdi. Ötən il İstanbulda olanda iş arası fürsət tapıb Çanaqqalaya onun işlədiyi universitetə getdim. Özünü görməzdən əvvəl universitet dəhlizində bu tanınmış ali məktəbin fəxri sayılan müəllimlərin sırasında Məmməd İsmayılın da şəklini gördüm. Düşündüm ki, atasızlıqdan, aclıqdan, gözügötürməzlik şəraitindən və s. adamın dilə gətirmək istəmədiyi neçə-neçə sıxıntıdan keçib, zəhmətiylə öz həyatını qurmuş və təmənnasız şəkildə düz sözün, ədalətin, mənəvi dəyərlərimizin keşiyində dayanan və bəlkə elə bütün bunlara görə Allahın qoruduğu insanları sındırmaq olmaz, onların ipiizi Allahın əlindədir və bütün qərarlar onundur. Məmməd bəy də Bakıdan gedəndən sonra vay-şivən salmadı, əksinə, qolunu çirməyib elmlə məşğul oldu və bu gün Çanaqqala universitetinin professorudur.

Axşam onun səliqəsizliyi ilə bizim kirayə mənzillərimizi (o mənzillərin Məmmədə aid olan hissəsini!..) xatırladan mənzilində oturmuşduq. Aradan illər keçib! Amma nə vaxt və necə keçib? Yaşa dolmuşuq! Ancaq gənclik illərinin çox xasiyyətləri dəyişilməyib... Dünyanı yenidən qurmaq iddiasındaydıq! - Dünya elə əvvəlki havasındadır... Yeni suallar doğuran mövzularımız və yenidən söhbəti cığallıq səviyyəsinə çatdıran xatirələr uc-uca calanmışdı. Mübahisə doğurmayan bir məsələ vardı: izlərimiz qırılmadı və heç vaxt qırılmayacaq...

*5.03.2017*

**Ədəbiyyat qəzeti.- 2017.- 8 aprel.- S. 21.**